

# Həmsədr ölkələrin mövqeyi beynəlxalq prinsiplərə ziddir

*Azərbaycan Xarici İşlər Nazirliyinin fransız deputatların Ermənistanın işğalı altındakı Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfəri ilə bağlı yaydığı bəyanatda ölkəmizin sərt reaksiyası əksini tapıb. Qeyd olunub ki, Fransa parlamentarilərinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfərini qəti şəkildə pisləyirik. Sənəddə bildirilib ki, yerli azərbaycanlı əhalinin qanlı etnik təmizləməsini həyata keçirən və münaqişənin həlli çərçivəsində məcburi köçkünlərin əzəli yaşayış yerlərinə qayıtmalarının qarşısını almaq üçün əlindən gələni edən Ermənistan tərəfindən ölkəmizin işğal olunmuş ərazilərinə bu qanunsuz səfərin həyata keçirilməsi Fransa Parlamenti üzvlərinin rəhbər tutmalı olduqları...*

Səh.9

24 səhifə
Həftəlik qəzet

# Unikal

№42 (1981) 14 sentyabr 2019-cu il
Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev
www.unikal.org
unikal-1@mail.ru



# Nazirdən sensasiyalı açıqlama

## Mikayıl Cabbarov: "7 dəfəyə qədər fərq yaranıb"

*"Biz 2018-ci ildə kölgə iqtisadiyyatına qarşı mübarizəyə başladıqdan sonra Statistika Komitəsi ilə Vergilər Nazirliyinin rəqəmləri arasında 7 dəfəyə qədər fərq yaranıb".*

*Unikal.org qafqazinfo-ya istinadən xəbər verir ki, bu sözləri Bakıda keçirilən "Kölgə İqtisadiyyatına Qarşı Mübarizə - İqtisadi İnkişafın Mühüm Amili kimi" adlı konfransda çıxış edən Vergilər naziri Mikayıl Cabbarov deyib. O bildirib ki, bu da kölgə iqtisadiyyatının həcminin göstəricisidir. Daha sonra Vergilər naziri Mikayıl Cabbarov çıxışında bildirib ki, kölgə iqtisadiyyatı dövlətin maliyyə strukturunun zəifləməsinə birbaşa təhdidlər yaradır:*

Səh.8

Səh.3



# Rəsmi Bakıdan Ermənistana xəbərdarlıq

## "Hakimiyyət bu tədbirlə nəbz yoxlaması həyata keçirir"



*Bir neçə gün öncə Bakıda hakim Yeni Azərbaycan Partiyasının da (YAP) iştirakı ilə siyasi partiyalar, media və vətəndaş cəmiyyətinin nümayəndələri "Siyasi partiyalar siyasi proseslərə xarici müdaxilə cəhdlərinə qarşı" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu...*

Səh.4

## Ehtiyatda olan zabit hərbi qanunlarla bağlı narazıdır



*Sentyabrın 11-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib. İclasın gündəliyindəki "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunub.*

Səh.6

## Saxta bal gətirənlərə "qırmızı kart"



*Azərbaycanda bu il Bal yarmarkasında ilk dəfə yeni qaydalar, tələblər qoyulacaq. Alıcıların Bal yarmarkasında satılan balların keyfiyyətinə inam yaratmaq üçün yeni mexanizmlər işlənib hazırlanıb. Saxta balın yarmarkaya gətirilməsinin qarşısını alacaq yeni mexanizmlər və şərtlərin nələrdən ibarət olacağına...*

Səh.8